Leobank

# FİZİKİ ŞƏXSLƏRƏ KREDİT XƏTTİNİN VERİLMƏSİ ÜZRƏ STANDART ŞƏRTLƏR

Bakı şəhəri 28.11.2024-cü il

Bu Standart Şərtlər Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən 14 dekabr 2010-cu il tarixdə verilmiş 73 saylı lisenziya, Azərbaycan Respublikasının qanunvericiliyi və öz Nizamnaməsi əsasında fəaliyyət göstərən "Unibank" Kommersiya Bankı ASC (bundan sonra – Bank) tərəfindən fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar olmayan kredit məhsullarından istifadə etmək niyyətini bildirdikləri və ya istifadə etdikləri halda onların Bankla münasibətlərini tənzimləyir. Bu Standart Şərtlər Bankın "Leobank" məhsulu çərçivəsində fiziki şəxslərə istehlak kreditinin verilməsi şərtləri və qaydalarını müəyyən edir və Standart Şərtlərdə göstərilən müddəalar qeyri-rezident fiziki şəxslərə şamil edilmir.

## ƏSAS ANLAYIŞLAR:

**Aksept** - Standart Şərtləri tam və qeyd-şərtsiz qəbul etməsi barədə müştərinin ərizəsi;
**Ərizə-anket və imza nümunəsi** – Müştəri tərəfindən bu Standart Şərtlərin aksepti sayılan və özündə müvafiq razılıq şərtlərini ifadə edən, bu Standart Şərtlərin və Müştəri ilə bağlanan kredit xətti müqaviləsinin tərkib hissəsi sayılan yazılı və imzalı ərizə;
**Analoq imza** – imza edənlə şəxsi açar vasitəsi ilə əlaqələndirilmiş elektron şəkildə imza atma imkanı yaradan unikal məlumatlar başa düşülür. Analoq imza Bank və Müştəri arasında qarşılıqlı razılaşdırılmış bütün əməliyyatların (müqavilələrin, məktubların, hesab üzrə sərəncamların, tapşırıqların, etirazların və sair imzalanması da daxil olmaqla) imzalanması üçün Bank tərəfindən Müştəriyə mobil əlavə vasitəsilə təqdim edilmiş və onun şəxsi imzasının alternativi olan və eyni hüquqi nəticələrə gətirən analoq imzadır. Analoq imza, həmçinin müştəri identifikasiyası üçün bir vasitə və bank alətidir və Müştərinin kağız üzərində təqdim etdiyi fiziki imza ilə eyni hüquqi qüvvəyə malikdir;
**Müştəri** - bu Standart Şərtləri qəbul edən və Bankın bu Standart Şərtlərdə göstərilən xidmətlərindən istifadə etmək niyyətində olan və/və ya istifadə edən rezident fiziki şəxs;
**Bankın internet səhifəsi** – leobank.az;
**Minimal aylıq ödəniş** – qalıq borcun Müştəri tərəfindən ödənilməli minimal aylıq məbləği;
**Mütləq ödəniş** – hər təqvim ayı üçün minimal aylıq ödəniş məbləğinə və əvvəlki dövrlər üçün yerinə yetirilməmiş minimal ödənişlərə bərabər ödəniş.
**Nağdlaşdırma** – bankomat (ATM), POS-terminal və ya qanunvericilikdə nəzərdə tutulan və Bank tərəfindən tətbiq edilən digər vasitələrlə nağd pul vəsaitinin alınması (məxarici) əməliyyatı;
**Nağdsız ödəniş** – nağd puldan istifadə etmədən kart vasitəsilə malların və ya xidmətlərin dəyərinin POS-terminal, ATM, mobil əlavə və ya internet vasitəsilə ödənilməsi əməliyyatı;
**Kredit** - müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər və (və ya) müqavilədə göstərilən digər ödənişlər ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaiti;
**Bərpa olunan kredit xətti** - kredit xətti üzrə yaranmış borc və ya onun bir hissəsi qaytarıldıqca bərpa olunan kredit məbləği və kredit məbləğindən təkrarən istifadə imkanı;
**Standart məlumatlandırma forması** – Müştəriyə kredit (kredit xətti) verilməzdən əvvəl Bankın kağız və ya digər davamlı daşıyıcıda Müştəriyə təqdim etdiyi və kreditlə (kredit xətti ilə) bağlı məlumatların əks etdirildiyi, Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən təsdiq edilmiş forma. Standart məlumatlandırma forması bu Standart Şərtlərin tərkib hissəsi hesab olunur;
**Davamlı daşıyıcı** - məlumatın məqsədlərinə uyğun müddət ərzində saxlanılmasına imkan verən

və saxlanılan məlumatın dəyişiklik olmadan əks etdirilməsi mümkün olan istənilən vasitə;
**Əməliyyat günü –** Bankın daxili qaydaları ilə iş günü ərzində müştərilərə xidmət göstərilən vaxt; Bankın əməliyyat günü dedikdə, qanunvericilikdə müəyyən olunmuş iş günü ərzində saat 09:00-dan saat 17:00-a qədər olan dövr nəzərdə tutulur. Bankın əməliyyat günü tamamlandıqdan sonra icraata qəbul edilmiş xidmətlər növbəti iş günündə qəbul edilmiş hesab olunur və icra edilir;
**Pul köçürmələri** – bu Standart Şərtlərin məqsədləri üçün nağd və ya nağdsız qaydada pul vəsaitlərinin müəyyən edilmiş sistem vasitəsilə bir şəxsdən (göndərən) digər şəxsə (alan) köçürülməsi;
**Komissiya haqqı** – Bank tərəfindən göstərilən xidmətlərə görə Müştəri tərəfindən ödənilməli olan, Bankın tarif dərəcələrinə və/və ya bu Standart Şərtlərin müddəalarına əsasən müəyyən edilən haqq;
**Tariflər** – xidmətin göstərilməsi üçün müəyyən edilmiş haqq, o cümlədən kredit xəttinə hesablanan faizlər, kreditin verilməsinə görə müəyyən edilmiş komissiyalar, dəbbə pulu, kartdan pul köçürmə əməliyyatlarına görə müəyyən edilmiş komissiyalar, nağdlaşdırma əməliyyatlarına görə komissiyalar, həmçinin Bankın internet səhifəsində və ya mobil əlavədə Tariflər bölməsində göstərilmiş digər ödənişlər. Tariflər bu Standart Şərtlərin tərkib hissəsi hesab edilir. Bank, rəsmi internet səhifəsində və ya mobil əlavədə məlumat yerləşdirməklə birtərəfli qaydada mövcud tariflərdə dəyişiklik edə bilər. Tariflərlə bağlı dəyişikliklər rəsmi internet səhifəsində və ya mobil əlavədə yerləşdirildiyi gündən 5 (beş) təqvim günü sonra qüvvəyə minir.
**Mobil əlavə** – internet bağlantı vasitəsilə istifadə edilə bilən, bank xidmətini özündə birləşdirə bilən, xüsusi proqram təminatında yaradılmış tətbiq.

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Standart Şərtlər 25 (iyirmi beş) il müddətinə Bankla Müştəri arasındakı kredit münasibətlərini tənzimləyir. Bank, bu müddətin sonunadək əqdin bağlanmasının qanunvericiliklə qadağan edilmədiyi istənilən formada, o cümlədən elektron üsulla (SMS, mobil tətbiq, elektron poçt adresi, elektron imza, internet bankçılıq, səsli rabitə vasitəsi və s.) Müştəriyə dəfələrlə bərpa olunan kredit xətti ayıra bilər. Kredit xəttinin ayrılması şərtləri və qaydaları bu Standart Şərtlərin müddəaları ilə müəyyən edilir.

1.2. Bu Standart Şərtlər heç bir halda Bank tərəfindən Müştəriyə kredit xəttinin ayrılması vədi kimi təfsir oluna bilməz. Müştəri, kredit xəttinin ayrılması üçün Banka müraciət etdikdən sonra Bank, kredit xəttinin ayrılması barədə qərarı özü müstəqil surətdə verir və Müştəri, bu Standart Şərtlərə istinad edərək Bankdan kredit verilməsini tələb edə bilməz.

1.3. Müştəri bu Standart Şərtlər çərçivəsində ona ayrılmış kredit xəttini "Leobank" məhsulu üzrə ona verilmiş ödəniş kartının müddəti bitənədək istifadə edə bilər. Ödəniş kartının müddəti bitdikdən sonra Müştəriyə yeni ödəniş kartı verildikdə Müştəriyə ayrılmış kredit xəttinin istifadəsi bərpa edilir. Ödəniş kartının müddəti bitdikdən sonra Müştəriyə ayrılmış kredit xəttindən istifadə Bank tərəfindən məhdudlaşdırılır və ayrılmış kredit xəttinin limitindən kartın müddəti bitənədək Müştəri tərəfindən istifadə edildiyi halda kredit xəttinin limiti borc məbləğinədək azaldılır.

1.4. Bu Standart Şərtlər çərçivəsində Müştəriyə ayrılmış kredit xətti Müştərinin müraciəti əsasında, o cümlədən Bank tərəfindən bu Standart Şərtlərin müddəaları və ya qanunvericiliyin tələblərinə əsasən bağlandığı halda kredit xəttinin bağlanmasına səbəb olmuş müvafiq əsas aradan qalxdıqdan sonra Müştərinin müraciəti əsasında bu Standart Şərtlərin müddəaları və qanunvericiliyin tələbləri nəzərə alınmaqla Müştəriyə yeni kredit xətti açıla bilər.

1.5. Bu Standart Şərtləri qəbul etmiş Müştəri burada göstərilən şərtlərlə və qaydada kredit xətti ayrılması üçün Banka müraciət etdikdə, Bank tərəfindən Müştəriyə mobil əlavə vasitəsilə və/və ya digər elektron üsulla kreditin xəttinin məbləği və valyutası, qaytarılma müddəti və ödəniş şərtləri, kredit üzrə tətbiq edilən faizlərin illik dərəcəsi və/və ya digər ödənişlərin məbləği və onların tətbiq edilmə şərtləri, həmçinin faktiki illik faiz dərəcəsi və onun hesablanmasına daxil edilən bütün ödənişlər, Müştəri tərəfindən edilməli olan ödənişlərin məbləği, sayı və dövriliyi, habelə yetərli miqdarda olmayan və ya artıq miqdarda edilən ödənişlərin öhdəliyin icrasından silinmə ardıcıllığı, o cümlədən qanunvericiliklə nəzərdə tutulmuş digər məlumatların əks

olunduğu standart məlumatlandırma forması təqdim edilir. Standart məlumatlandırma formasında göstərilən məlumatların əldə edilməsi və həmin məlumatlarda göstərilən şərtlərlə kredit xəttinin ayrılmasına Müştərinin razılığı elektron qaydada edilir. Müştəri, standart məlumatlandırma formasını təsdiq etməklə həmin standart məlumatlandırma formasında göstərilən şərtlərlə kredit xətti ayrılmasına razılığını bildirir və Müştərinin müvafiq razılığından sonra Müştəri ilə kredit xətti müqaviləsi bağlanılır. Müştəri ilə kredit xətti müqaviləsi bağlandıqdan sonra ona ayrılmış kredit xəttinin məbləği "Leobank" məhsulu çərçivəsində Müştəriyə açılmış müvafiq cari hesaba köçürülür.

1.6. Bu Standart Şərtlər çərçivəsində Müştəriyə ayrılan kredit xətti limitinin maksimal məbləği 15 000 (on beş min) manat, kredit xəttinin maksimal müddəti 60 (altmış) ayadək müəyyən olunur. Müştəriyə ayrılan kredit xətti limitinin maksimal məbləği Bankın mülahizəsinə əsasən daha artıq məbləğdə müəyyən oluna bilər.

1.7. Bank, Müştəriyə digər kredit öhdəliyini/öhdəliklərini bağlamaq şərtilə bu Standart Şərtlərlə müəyyən olunmuş qaydada və şərtlər çərçivəsində kredit xətti ayıra bilər. Bu halda Müştəriyə mobil əlavə vasitəsilə və ya digər elektron üsulla təklif edilən kreditinin şərtləri, o cümlədən məbləği, müddəti, illik faiz dərəcəsi, komissiya haqqı və digər məlumatların əks olunduğu bildiriş göndərilir. Müştəri, bildirişdə təklif olunan şərtlərlə kredit xəttinin ayrılmasına razılığını bildirdikdə, ona elektron üsulla standart məlumatlandırma forması göndərilir və bu Standart Şərtlərin 1.5-ci bəndində göstərilən qaydaya uyğun kredit xətti müqaviləsi bağlanaraq Müştəriyə kredit xətti ayrılır. Müştəri, Bankda və/və ya digər kredit təşkilatında olan və Bank tərəfindən bildirişdə göstərilən kredit öhdəliyini/öhdəliklərini Bank tərəfindən ayrılmış kredit limiti vasitəsilə 1 (bir) iş günü ərzində bağlamalıdır. Bu barədə məlumatı Bank, Azərbaycan Kredit Bürosunun müvafiq sistemi vasitəsilə yoxlayır. Müştəri tərəfindən kredit öhdəliyinin/öhdəliklərinin kredit limiti ilə bağlanması şərtlərinin pozulduğu aşkar edildikdə, Bank tərəfindən kredit limiti istifadə edilmiş borc məbləğinə endirilə və ayrılmış kredit limitinə müqavilə üzrə müəyyən olunmuş illik faiz, dəbbə pulu və digər ödənişlərdən əlavə aylıq əsasda komissiya haqqı tətbiq edilə bilər və həmin komissiya haqqı Müştərinin bütün hesablarından akseptsiz qaydada tutula bilər. Komissiya haqqının məbləği standart məlumatlandırma formasında, kredit xətti müqaviləsində, leobank.az saytında və/və ya mobil əlavədə Tariflər bölməsində göstərilir.

1.8. Kredit Müqaviləsi üzrə öhdəliklər tam icra edildikdə, bank Müştəriyə yeni kredit rəsmiləşdirə bilər. Həmçinin, kredit xəttinin müddəti bitdikdə və ya Müştərinin müraciəti, o cümlədən Bankın təklifi əsasında Bank, mövcud kredit xəttini bağlamaqla Müştəriyə yeni kredit xətti aça bilər. Bu zaman əvvəlki kredit xətti üzrə Müştərinin bütün kredit öhdəlikləri (taksitli ödəniş, nağd kredit məhsulu və s.) Müştəri ilə bağlanan kredit xətti müqaviləsində ayrı qayda nəzərdə tutulmadıqda, Müştəriyə açılan yeni kredit xəttində eyni qaydada davam edir.

## 2. KREDİTİN, KREDİT FAİZLƏRİNİN VƏ DƏBBƏ PULUNUN HESABLANMASI VƏ QAYTARILMA QAYDALARI

2.1. Kreditin xəttinin ayrıldığı gün kredit xətti məbləğinin Müştərinin hesabına mədaxil olunduğu gün hesab edilir. Kreditin qaytarıldığı gün kredit xətti üzrə əsas borcun və hesablanmış faizlərin, o cümlədən dəbbə pulunun və bu Standart Şərtlərdə, standart məlumatlandırma formasında, həmçinin Müştəri ilə bağlanan kredit xətti müqaviləsində göstərilmiş digər ödənişlərin Bankın bu məqsədlə açdığı hesaba mədaxil olunduğu tarix hesab olunur. Əgər Müştərinin hesabı üzərinə həbs qoyulması və ya icra sənədi (o cümlədən, vergi sərəncamı) səbəbilə Müştəri tərəfindən həyata keçirilən ödəniş dövlətin, dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin xeyrinə silinərsə və ya vəsait dondurularsa, kredit üzrə ödənişlər həyata keçirilməmiş sayılır.

2.2. Kreditin və kreditdən istifadəyə görə faizlərin qaytarılması kreditin verildiyi valyutada həyata keçirilir.

2.3. Kreditin və kreditdən istifadəyə görə faizlərin Müştəri tərəfindən Banka qaytarılmasının dövriliyi bu Standart Şərtlər və/və ya Bank tərəfindən Müştəriyə təqdim edilən standart məlumatlandırma forması ilə müəyyən olunur. Bu Standart Şərtlərdə göstərilmiş faizlərin hesablanmadığı müddət

nəzərə alınmaqla, kredit xəttindən istifadə edildiyi gündən sonrakı gün faizlərin hesablanması başlayır. Faizlər, gündəlik olaraq ötən günün ən çox əsas borcuna hesablanır. Kredit xətti üzrə hesablanan faiz dərəcəsi haqqında məlumat standart məlumatlandırma formasında və kredit xətti müqaviləsində göstərilir. Müştəri, kredit xətti müqaviləsi üzrə ödənişləri kredit xəttindən tam və ya qismən istifadə etdiyi ayın müvafiq tarixindən asılı olmayaraq növbəti ayın sonuncu gününədək (sonuncu gün daxil olmaqla) ödədiyi halda Müştəridən kredit üzrə faizlər tutulmur. Bu müddət güzəşt müddəti hesab olunur. Borcun yarandığı ay üzrə borc məbləği güzəşt müddəti ərzində tam ödənilməyibsə, güzəşt müddətindən sonrakı ayın ilk günü kredit xəttindən istifadə olunmuş məbləğə hesablanan faizlər də ödənilməlidir. Güzəşt müddətindən sonra faizlər kredit xəttindən istifadə olunduğu tarixdən öhdəliyin icra edilmədiyi bütün dövr üzrə hesablanır. Müştəri, hesablanan faizləri tam həcmdə ödəmədikdə, ödənilməli faiz məbləği kredit limiti hesabına ödənilir (kredit limitindən çıxılır).

2.4.Müştəri, öhdəliyin gecikdirilmiş hesab edilməməsi üçün güzəşt müddətinin sonunadək bu Standart Şərtlərlə müəyyən olunmuş minimal ödənişi həyata keçirməlidir. Minimal ödəniş kredit xəttindən istifadə edilmiş məbləğin minimum 5 %-i həcmində (10 manatdan az olmayaraq) müəyyən olunur və bu məbləğ kredit üzrə öhdəliyin ümumi məbləğindən (hesablanmış faizlərlə birlikdə ümumi borcdan) artıq ola bilməz. Müştəri, güzəşt müddətinin sonunadək mövcud öhdəliyi üzrə minimal ödənişi icra etməzsə, növbəti gündən etibarən öhdəlik gecikdirilmiş hesab edilir və öhdəliyin icra edilməməsinə görə dəbbə pulunun hesablanması başlanılır. İlk minimal ödəniş məbləği güzəşt müddəti ərzində kredit xəttindən istifadə olunan aydan sonrakı ayın ilk günü formalaşır və bu məbləğ həmin ayın son günündə saat 23:55-dək Müştəri tərəfindən ödənilməlidir. Bu müddət ərzində Müştəri tam ödəniş də edə bilər. Tam ödəniş dedikdə, istifadə olunmuş kredit xətti məbləğinin tam ödənilməsi başa düşülür. Güzəşt müddətindən sonra kredit xəttindən istifadə edilmiş məbləğ və həmin məbləğə hesablanmış faizlər, dəbbə pulu, dövlət rüsumu və xidmət haqları (əgər varsa) Müştəri tərəfindən ödənilməlidir. Minimal ödəniş edilmədiyi halda borc məbləğinə kredit limitindən istifadə olunma tarixindən hesablanmış faizlərlə birlikdə, güzəşt müddətindən sonrakı ayın ilk günündən dəbbə pulu da hesablanır. Dəbbə pulu minimal ödəniş məbləğinə hesablanır (Məsələn, Müştəri 5 avqust tarixində kredit xətti vəsaitindən istifadə etdiyi məbləği növbəti ayın sonuncu gününədək (30 sentyabr tarixinədək) ödədiyi halda güzəşt müddətində olduğu üçün Müştəridən heç bir faiz tutulmur. Müştəri, güzəşt müddəti ərzində yalnız minimal ödənişi həyata keçirdiyi halda güzəşt müddətindən sonrakı ayın ilk günü (1 oktyabr) güzəşt müddəti ərzində istifadə olunmuş və ödənilməmiş kredit xətti məbləğinə kredit limitindən istifadə olunma tarixindən (5 avqust) başlamaqla faizlər hesablanır. Müştəri, güzəşt müddəti ərzində minimal ödənişdən az ödəniş etdikdə və ya heç bir ödəniş etmədiyi halda, güzəşt müddətindən sonrakı ayın ilk günündən (1 oktyabr) Müştərinin kredit öhdəliyi gecikdirilmiş hesab olunur və həmin tarixdən minimal ödəniş məbləğinə dəbbə pulu, həmçinin ödənilməmiş kredit xətti məbləğinə kredit limitindən istifadə olunma tarixindən (5 avqust) başlamaqla faizlər hesablanır). 30 manat və daha aşağı borc üzrə minimal ödəniş edildiyi halda həmin borc üzrə güzəşt müddəti saxlanılır və faizlər və dəbbə pulu hesablanmır. Bu məbləğ üzrə güzəşt müddəti ardıcıl iki aydan çox olmayaraq tətbiq edilir. Növbəti aydan etibarən bu Standartlar Şərtlər üzrə müəyyən olunmuş ödənişlər edilmədiyi halda faizlər və dəbbə pulu hesablanır.

2.5.Kredit üzrə faizlər standart məlumatlandırma formasında göstərilən illik faiz dərəcəsinin üç yüz altmışa bölünərək, kredit xəttindən istifadə olunduğu faktiki günlərin (kredit xəttindən istifadə olunduğu gün daxil, kredit borcunun qaytarıldığı gün isə xaric olmaqla) sayına vurulmaqla hesablanır.

2.6.Faizlər və digər haqlar yalnız borcun qaytarıldığı günədək ödənilməmiş əsas borc qalığı məbləğinə, dəbbə pulu isə minimal ödəniş məbləğinə hesablanır.

2.7.Müştəri və ya onun xeyrinə üçüncü şəxs tərəfindən ödənilən pul vəsaiti (o cümlədən yetərli miqdarda olmayan və ya artıq miqdarda ödənilən pul vəsaiti) birinci növbədə Bank tərəfindən ödənilən dövlət rüsumu və xidmət haqlarının, eləcə də komissiya haqlarının, ikinci növbədə

ödəniş tarixinə olan vəziyyət üzrə dəbbə pulunun, üçüncü növbədə mövcud kredit faizlərinin və dördüncü növbədə kredit xətti üzrə əsas borc məbləğinin ödənilməsinə yönəldilir.

2.8. Müştərinin kredit xətti üzrə borcu onun kredit xəttindən faktiki istifadəsi zamanı yaranır. Kredit xəttindən faktiki istifadə dedikdə, Müştəri tərəfindən kartdan hər hansı formada istifadə edilməklə (ATM, POS-terminal, ApplePay, GooglePay və s. vasitəsilə) kredit xətti üzrə nağd pul vəsaitlərinin çıxarılması və/və ya nağdsız ödənişlərin aparılması başa düşülür.

## 3. KREDİT XƏTTİ MƏBLƏĞİNİN "HİSSƏ-HİSSƏ ÖDƏNİŞ" ÜSULU İLƏ İSTİFADƏSİ

3.1. Kredit xətti vəsaitindən istifadə etməklə malların və ya xidmətlərin nağdsız qaydada alış məbləğinin və ya kredit xətti vəsaitindən nağd formada istifadə olunmuş məbləğin Müştəri tərəfindən geri ödənilməsi mobil əlavədə yaradılmış imkan vasitəsilə "hissə-hissə ödəniş" üsulu ilə həyata keçirilə bilər. Bir ödəniş əməliyyatı çərçivəsində Müştəri həm şəxsi vəsaitləri, həm də kredit xətti vəsaitlərindən istifadə etdikdə, "hissə-hissə ödəniş" seçimi vəsaitlərin kredit xəttindən istifadə edilən hissəsinə tətbiq edilir. "Hissə-hissə ödəniş" seçimi edildikdə tam və ya müəyyən hissədə icra edilən ödənişlərin sayı, xidmət haqqı (olduqda), "hissə-hissə ödəniş" seçiminin tətbiq edildiyi minimal və maksimal məbləğ, "hissə-hissə ödəniş"in müddəti və ödənişin tam və ya qismən həyata keçirildiyi şərtlər və digər şərtlər barədə məlumat mobil əlavədə qeyd edilir və Müştəri mobil əlavədə olan müvafiq funksiya vasitəsilə həmin şərtləri qəbul etdiyini təsdiq edir. "Hissə-hissə ödəniş" seçimi kredit xətti müqaviləsinin qüvvədə olduğu müddət ərzində edilə bilər

3.1.1. Kredit xətti vəsaitindən istifadə etməklə həyata keçirilmiş ATM və ya POS-terminal vasitəsilə vəsaitin nağdlaşdırılması, POS-terminal vasitəsilə nağdsız ödənişlər, kartdan karta pul köçürmə əməliyyatları və internet saytlarından onlayn ödənişləri hissələrlə geri ödəmək üçün Müştəri, bu əməliyyatların aparıldığı tarix də daxil olmaqla, 90 (doxsan) təqvim günü ərzində mobil tətbiq vasitəsilə Banka müraciət edə bilər. "Hissə-hissə ödəniş" seçimi zamanı əməliyyat məbləği 3 (üç) aydan 24 (iyirmi dörd) aya qədər (ölkə xaricində aparılmış əməliyyatlar üzrə 4 (dörd) aydan 24 (iyirmi dörd) aya qədər) bərabər hissələrə bölünə bilər.İlk hissə dərhal kredit xətti borcu kimi qəbul edilir və həmin hissəyə bu Standart Şərtlərin müddəalarına uyğun faiz hesablanır. Digər hissələrdə olan borc isə "hissə-hissə ödəniş" kimi təsnifləşdirilir və həmin hissələrə bu müqavilənin şərtlərinə uyğun faiz hesablanmır. "Hissə-hissə ödəniş" borcu üzrə hissələr hər növbəti ayın "hissə-hissə ödəniş" əməliyyatının aparıldığı eyni təqvim günündən etibarən (əgər qeyd edilən təqvim günü növbəti aylarda yoxdursa, əvvəl gələn təqvim günü əsas götürülür) Bank tərəfindən kredit xətti borcundan istifadə kimi tanınır (Məsələn, Müştərinin 1000 manat kredit xətti mövcuddur. Fevral ayının 5-də həmin kredit xəttindən istifadə etməklə 600 manat məbləğində ATM və ya POS-terminal vasitəsilə vəsaitin nağdlaşdırılması, POS-terminal vasitəsilə nağdsız ödənişlər, kartdan karta pul köçürmə əməliyyatları və ya internet saytlarından onlayn ödəniş əməliyyatı aparır. Əməliyyatın aparıldığı gün Müştərinin kredit xətti borcu 600 manat, sərbəst kredit vəsaiti isə 400 manat qalır. Müştərinin seçiminə əsasən əməliyyatın aparıldığı gün aparılmış həmin əməliyyat məbləğinə fevral ayının 5-də "hissə-hissə ödəniş" tətbiq edilir və əməliyyat məbləği Müştərinin seçiminə uyğun olaraq 3 (üç) bərabər hissəyə bölünür. İlk hissə (200 manat) və xidmət haqqı (olduqda) dərhal kredit xətti borcu kimi tanınır. Digər iki hissə isə (ümumilikdə 400 manat) "hissə-hissə ödəniş" kimi qəbul edilir. Həmin ilin mart ayının 5-də "hissə-hissə ödəniş"ə aid edilən ikinci hissə və xidmət haqqı (olduqda) ödənilməmiş hissədə kredit xətti borcu kimi tanınır və kredit xətti borcu ilk hissə ilə birlikdə 400 manat və xidmət haqqı (olduqda) məbləği, hissə-hissə ödəniş üzrə borc isə 200 manat olur. Həmin ilin aprel ayının 5-dən "hissə-hissə ödəniş"ə aid edilən üçüncü hissə və xidmət haqqı (olduqda) ödənilməmiş hissədə kredit xətti borcu kimi tanınır və kredit xətti borcu ilk hissə və "hissə-hissə ödəniş"ə aid edilən ikinci hissə ilə birlikdə 600 manat və xidmət haqqı (olduqda) məbləği, "hissə-hissə ödəniş" üzrə borc isə 0 manat olur və bu Standart Şərtlərin müddəalarına uyğun ödənişlər həyata keçirilir). Müştəri, mobil tətbiq vasitəsi ilə 5 (beş) təqvim günü ərzində rəsmiləşdirilmiş "hissə-hissə ödəniş" əməliyyatını geriyə qaytarmaq imkanına malikdir. Bu bənddə göstərilən ödənişlərə görə Bank tərəfindən Müştəriyə həvəsləndirici ödəniş (bundan sonra "kəşbək" adlandırılacaq) hesablanarsa

və ya ödənilərsə, həmin ödənişlərə əməliyyatın aparıldığı vaxtdan sonra "hissə-hissə ödəniş" tətbiq edildikdə Bank həmin vəsaiti Müştəriyə hesablanmış kəşbək məbləğindən və ya Bankda olan digər hesablarından silmək hüququna malikdir. Bu bənddə göstərilən internet saytlarından onlayn ödəniş əməliyyatları üzrə "hissə-hissə ödəniş" seçimi Bank tərəfindən məhdudlaşdırıla bilər.

3.1.2. Bu Standart Şərtlərin 3.1.1-ci bəndində qeyd edilən "hissə-hissə ödəniş" seçimi həmçinin, planlaşdırılan əməliyyatlara münasibətdə də tətbiq edilə bilər. Müştəri, kredit xətti hesabına bu Standart Şərtlərin 3.1.1-ci bəndində göstərilən (ATM və ya POS-terminal vasitəsilə vəsaitin nağdlaşdırılması istisna olmaqla) həyata keçiriləcək ödəniş üçün mobil əlavədə hissə-hissə ödəniş seçimi etməlidir. Bu seçim Müştərinin hesabında kredit xətti ilə yanaşı, şəxsi vəsaitləri olduğu təqdirdə də mümkündür. Bu zaman Müştəri ödənişin məbləğini, hissə-hissə ödənişin sayını və Bank tərəfindən müəyyən edilə bilən digər şərtləri mobil əlavədə qeyd etməlidir. Planlaşdırılmış ödəniş üçün hissə-hissə ödəniş seçimi təyin edildikdə hissə-hissə ödəniş bu bənddə göstərilən şərtlər nəzərə alınmaqla, cari gün saat 00:00-dək aparılan ilk ödənişə tətbiq edilir. Ödənişin məbləği təyin edilmiş hissə-hissə ödəniş məbləğindən 10% aşağı və ya yuxarıya doğru fərq arasında olan istənilən məbləğdə həyata keçirilə bilər (Məsələn, hissə-hissə ödəniş məbləği 600 manat müəyyən olunduğu halda, 10 faiz aşağı (540 manat) və ya yuxarı fərq (660 manat) nəzərə alınmaqla, Müştəri müvafiq olaraq 540 manatdan 660 manatadək məbləğ arasında olan istənilən məbləğdə (həmin məbləğlər daxil olmaqla) hissə-hissə ödəniş həyata keçirə bilər), əks halda hissə-hissə ödəniş əməliyyatı keçərli olmayacaq və Müştəri tərəfindən ləğv edilməmişsə, bu bənddə qeyd edilən tələblərə cavab verən növbəti ilk ödənişə tətbiq ediləcəkdir. Əvvəlcədən hissə-hissə ödəniş seçimi təyin edilmiş ödəniş məbləğinə görə Bank tərəfindən kəşbək məbləği ödənilmir. Ayrılmış kredit limiti çərçivəsində hissə-hissə ödəniş əməliyyatlarının sayına məhdudiyyət tətbiq edilmir.

3.1.3. Müştəri, həmçinin kredit xəttindəki vəsaitin bir qismini və ya hamısını (300 manatdan az olmayaraq) ATM və ya POS-terminal vasitəsilə nağdlaşdıraraq həmin vəsaitləri "hissə-hissə ödəniş" üsulu ilə ("Nağd kredit") geri qaytara bilər. Bu zaman Müştəri ATM və ya POS-terminal vasitəsilə nağdlaşdıracağı ödənişin məbləğini və hissə-hissə ödənişin sayını mobil əlavədə qeyd etməli və Bank tərəfindən müəyyən edilən digər şərtləri mobil əlavədə təsdiq etməlidir. "Hissə-hissə ödəniş" seçimi, Müştərinin hesabında kredit xətti ilə yanaşı, şəxsi vəsaitləri olduğu təqdirdə də mümkündür. Bu zaman "hissə-hissə ödəniş" kredit xətti hesabından nağdlaşdırılan vəsaitə tətbiq edilir. Kredit xətti vəsaitinin nağdlaşdırılması üzrə əməliyyat məbləği 3 (üç) aydan 24 (iyirmi dörd) aya qədər bərabər hissələrə bölünə bilər. Komissiya haqqının və xidmət haqqının məbləği (olduqda) Tariflərdə qeyd edilir. Ödənişlər növbəti ayın eyni təqvim günündən gec olmayaraq icra edilir. Əgər əməliyyatın aparıldığı təqvim günü növbəti ayların hər hansı birində mövcud deyilsə, həmin ayda ödəniş müvafiq ayın sonuncu təqvim günündən gec olmayaraq edilir. Misal üçün, Müştərinin 2000 manat kredit xətti mövcuddur. Mart ayının 15-də həmin kredit xəttindən istifadə etməklə Müştəri, 1000 manat məbləğində vəsaiti nağdlaşdırır və nağdlaşdırılan məbləğ Müştərinin seçiminə uyğun olaraq 10 (on) bərabər hissəyə bölünür. Ödənişlər hər növbəti ayın (aprel) 15-də ödənilməmiş hissədə kredit xətti borcu kimi tanınır və hissə-hissə ödəniş üzrə müddətin sonuncu ayınadək hər ay eyni tarixdə 100 manat məbləğində vəsait kredit xətti borcu kimi tanınaraq kredit xəttindən silinir. Bu xidmətə görə müştəridən xidmət haqqı dərhal tutulur. "Nağd kredit" məhsulu üzrə kredit xətti vəsaitinin nağdlaşdırılması əməliyyatı Müştəri tərəfindən mobil tətbiqdə sifariş edildikdən sonra "hissə-hissə ödəniş" bu bənddə göstərilən şərtlər nəzərə alınmaqla 24 saat ərzində aparılan əməliyyat(lar)a tətbiq edilir. Nağdlaşdırma əməliyyatının məbləği 300 manatdan sifariş edilmiş "hissə-hissə ödəniş" məbləğinə qədər (həmin məbləğ daxil olmaqla)həyata keçirilə bilər (Məsələn, hissə-hissə ödəniş məbləği 600 manat müəyyən olunduğu halda Müştəri müvafiq olaraq 300 manatdan 600 manatadək məbləğ arasında olan istənilən məbləğdə bir və ya bir neçə nağdlaşdırma həyata keçirə bilər. Məbləğ 300 manatdan aşağı olduğu halda "hissə-hissə ödəniş" əməliyyatı keçərli olmayacaq və qeyd edilən nağdlaşdırma əməliyyatına bu Standart Şərtlər, standart məlumatlandırma forması və kredit xətti müqaviləsində müəyyən olunan ödənişlər (komissiya, faiz, dəbbə pulu və s.) hesablanacaqdır. Müştəri tərəfindən

sifariş ləğv edilməmişsə, bu bənddə qeyd edilən tələblərə cavab verən növbəti ilk nağdlaşdırma əməliyyatına “hissə-hissə ödəniş” tətbiq ediləcəkdir. Nağdlaşdırılan məbləğ sifariş edilən məbləğdən daha yuxarı olduğu halda, sifariş verilmiş məbləğdə “hissə-hissə ödəniş” formalaşacaq. Sifariş verilmiş məbləğdən yuxarı nağdlaşdırılan hissəyə isə bu Standart Şərtlər, standart məlumatlandırma forması və kredit xətti müqaviləsində müəyyən olunan ödənişlər (komissiya, faiz, dəbbə pulu və s.) hesablanacaqdır. Müştəri, gün ərzində yeni nağdlaşdırma əməliyyatını bu bənddə göstərilən “hissə-hissə ödəniş” üsulu üzrə sifariş edilmiş cari məbləği nağdlaşdırdıqdan sonra sifariş edə bilər. Müştəri, sifariş edilmiş cari məbləğdən fərqli məbləğ nağdlaşdırmaq istədiyi halda cari sifariş edilmiş məbləği nağdlaşdıranadək həmin məbləği mobil əlavədə redaktə edə və ya sifarişi ləğv edib yeni sifariş edə bilər.

3.1.4. Həmçinin, Bankın partnyor şəbəkələrində aparılmış əməliyyatlar zamanı istifadə edilmiş kredit məbləğləri Bankla partnyorlar arasında bağlanmış əməkdaşlıq müqavilələrində nəzərdə tutulmuş müddətlərə daxil olan ayların sayına bölünərək bu bənddə nəzərdə tutulmuş qaydada bərabər hissələrlə ödənilə bilər. Bu halda kreditdən “hissə-hissə ödəniş” üsulu ilə istifadəyə görə xidmət haqqı (komissiya) Bankla partnyorlar arasında bağlanan əməkdaşlıq müqavilələrinə əsasən partnyorlar və ya Müştərilər tərəfindən ödənilir. Kredit xəttindən “hissə-hissə ödəniş” üsulu ilə istifadəyə görə xidmət haqqı (komissiya) məbləği də Bank ilə partnyorlar arasında bağlanan əməkdaşlıq müqavilələri ilə müəyyən olunur. “Hissə-hissə ödəniş” üsulu ilə əlaqədar xidmətlər və onların tarifləri, istifadə şərtləri bu Standart Şərtlər, standart məlumatlandırma forması və/və ya Tariflərdə göstərilir. Kredit xətti üzrə hər bir faktiki istifadə edilmiş kredit məbləği faktiki istifadə edildiyi tarixdən etibarən Bankla partnyorlar arasındakı layihələr üzrə bağlanmış və gələcəkdə bağlanacaq əməkdaşlıq müqavilələrində nəzərdə tutulmuş müddətdə Müştəri tərəfindən tam ödənilməlidir.

3.1.5. Müştəri, bu Standart Şərtlərin 3.1.1 – 3.1.4-cü bəndlərində göstərilən “hissə-hissə ödəniş” üzrə borcunu vaxtından əvvəl ödəyə bilər. “Hissə-hissə ödəniş” üzrə borcun vaxtından əvvəl ödənilməsi halında, Bank Müştəridən kompensasiya tələb etmək hüququna malikdir. Kompensasiyanın məbləği standart məlumatlandırma formasında, kredit xətti müqaviləsində və/və ya Tariflərdə göstərilir. “Hissə-hissə ödəniş” üzrə xidmət haqqı (olduqda) “hissə-hissə ödəniş” üzrə kredit xətti vəsaitindən istifadə edilmiş ümumi məbləğə (standart məlumatlandırma formasında, kredit xətti müqaviləsində və/və ya Tariflərdə göstərilmiş həcmdə) faktiki istifadə edilmiş hər ay üçün hesablanır.

## 4. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

**4.1. Bankın hüquqları:**

4.1.1. Müştəri, kreditin və/və ya ona hesablanmış faizlərin, o cümlədən standart məlumatlandırma formasında, kredit xətti müqaviləsində və/və ya Tariflərdə göstərilən digər ödənişlərin ödənilməsini gecikdirdikdə, Bank Müştəridən dəbbə pulu tələb edə bilər. Dəbbə pulunun məbləği standart məlumatlandırma formasında və kredit xətti müqaviləsində göstərilir.

4.1.2. Müştəri, bu Standart Şərtlərin 4.3.2-ci bəndində göstərilən hüququndan istifadə edərək kredit öhdəliyini vaxtından əvvəl icra etdiyi halda Bank, Müştəridən kompensasiya tələb edə bilər. Kompensasiyanın məbləği bu Standart Şərtlərin 4.3.1-ci bəndi nəzərə alınmaqla müqavilə müddətinin bitməsinə bir ildən çox müddət qaldıqda, vaxtından əvvəl ödənilmiş məbləğin 1 (bir) faizi, bir il və daha az müddət qaldıqda isə 0,5 faizi həddində müəyyən olunur.

4.1.3. Bank, Müştərinin bank hesablarından kredit və ona hesablanmış faiz borcunu, eləcə də dəbbə pulunu, həmçinin kreditin verilməsi ilə əlaqədar komissiya haqlarını və standart məlumatlandırma formasında və kredit xətti müqaviləsində göstərilən digər ödənişləri Müştəriyə məxsus bank hesablarından və digər əsaslarla ona çatası vəsaitlərdən, o cümlədən digər valyutalardakı hesablarından cari kommersiya məzənnə kursu ilə konvertasiya olunaraq komissiya haqları (tətbiq olunduqda) tutulmaq şərtilə akseptsiz qaydada silə bilər.

4.1.4. Müştəri kredit öhdəliklərini vaxtında və lazımi qaydada yerinə yetirməzsə, Bank, Müştərinin razılığı olmadan bu müqavilə üzrə tələb hüquqlarını istənilən üçüncü şəxsə, o cümlədən və

bununla məhdudlaşmadan, kollektor agentliklərinə, kollektor şirkətlərinə və bu sahədə ixtisaslaşmış digər hüquqi şəxslərə güzəşt etmək hüququna malikdir.

4.1.5. Bank, kreditdən istifadəyə görə nəzərdə tutulmuş faiz dərəcəsini, komissiyanı, habelə öhdəliklərin pozulmasına görə nəzərdə tutulmuş dəbbə pulunu birtərəfli qaydada azaltmaq hüququna malikdir.

4.1.6. Bank, Müştərinin maliyyə vəziyyətini yenidən araşdıra və nəticədə Müştəriyə ayrılmış kredit xətti limitinin saxlanılması, artırılması, azaldılması və ya ləğv edilməsini həyata keçirə bilər.

4.1.7. Bank, Müştərinin mövcud kredit öhdəlikləri və yeni kredit məhsulları barədə Müştərini məlumatlandırmaq, həmçinin Müştəriyə kredit xəttinin ayrılması ilə bağlı təklif göndərmək hüququna malikdir.

4.1.8. Müştəri kredit öhdəliyinin icrasını gecikdirdikdə, Bank, Müştərinin təqdim etdiyi əlaqə məlumatlarına, o cümlədən faktiki və/və ya qeydiyyat ünvanına özündə kredit borcu haqqında məlumatları (Müştərinin adı, soyadı, atasının adı, kreditin məbləği, qalıq borcu və s.), həmçinin kreditin ödəniş gününün dəyişdirilməsi barədə məlumatları əks etdirən bildiriş (xəbərdarlıq, pretenziya) göndərmək hüququna malikdir.

4.1.9. Bank, Müştəri tərəfindən minimal ödənişin gecikdirilməsi 3 (üç) təqvim günündən artıq davam etdiyi halda kredit xəttindən istifadəni məhdudlaşdırmaq, 90 (doxsan) təqvim günündən artıq davam etdiyi halda isə kredit xətti müqaviləsinə birtərəfli qaydada vaxtından əvvəl xitam vermək və borcu tam həcmdə tələb etmək hüququna malikdir.

4.1.10. Borcalan tərəfindən Kredit Müqaviləsi üzrə aylıq ödəniş məbləğindən artıq ödənişlər edildikdə, Bank tərəfindən yeni ödəniş cədvəli tərtib oluna və mobil əlavələr vasitələri ilə borcalana bu barədə məlumat verə bilər.

**4.2. Bankın vəzifələri:**

4.2.1. Kredit bürolarından alınmış məlumatlar əsasında Müştəriyə kredit verilməsindən imtina edildikdə, Müştərinin müraciəti əsasında növbəti iş günündən gec olmayaraq bu barədə Müştəriyə yazılı şəkildə (kağız və ya digər davamlı daşıyıcıda) məlumat təqdim etmək;

4.2.2. Müştəri, bu Standart Şərtlərin 4.3.1 və 4.3.2-ci bəndlərində göstərilən hüququndan istifadə edərək kredit müqaviləsindən imtina etdikdə və ya krediti tamamilə və ya qismən Banka qaytardığı halda Müştərinin tələbi ilə Bankın tariflərində nəzərdə tutulmuş xidmət haqlarının ödənilməsi şərtilə Müştəriyə bu barədə müvafiq təsdiqedici sənəd vermək. Digər halda kreditin qalığı barədə müvafiq təsdiqedici sənəd üçün ödəniş bu Standart Şərtlərin 4.3.3-cü bəndi nəzərə alınmaqla tələb edilir;

4.2.3. Kreditin və kredit üzrə hesablanmış faizlərin uçotunu aparmaq;

4.2.4. Kreditdən istifadəyə görə faizlərin hesablanmasının və tutulmasının düzgünlüyünə riayət etmək.

**4.3. Müştərinin hüquqları:**

4.3.1. Müştəri, kredit xətti müqaviləsi üzrə pul vəsaitinin ona verildiyi gündən 30 (otuz) gün müddətində heç bir səbəb göstərmədən kredit müqaviləsindən imtina edə bilər. Bu halda, Müştəri, müqavilə üzrə verilmiş pul vəsaitini və həmin pul vəsaitinin verildiyi gündən qaytarıldığı günədək hesablanan faizləri ödəməlidir. Bank tərəfindən ödənilən dövlət rüsumu və xidmət haqlarının məbləği istisna olmaqla, Müştəridən kompensasiya və hər hansı digər ödənişlərin alınması yolverilməzdir.

4.3.2. Müştəri, istehlak kreditini istənilən vaxt xəbərdarlıq etmədən tamamilə və ya qismən Banka qaytara bilər. Bu halda, kreditin qalıq müddətinə görə hesablanmış faizlər və (və ya) digər haqlar vaxtından əvvəl ödənilmiş məbləğə mütənasib olaraq azaldılır.

4.3.3. Müştəri, kredit müqaviləsinin qüvvədə olduğu müddətdə sorğu əsasında ödənişsiz olaraq kağız daşıyıcıda təqvim ili ərzində iki dəfə, digər davamlı daşıyıcıda isə istənilən zaman kreditin qalığı barədə hesabdan çıxarışı əldə etmək hüququna malikdir.

4.3.4. Kredit bürolarından alınmış məlumatlar əsasında Bank tərəfindən Müştəriyə kredit verilməsindən imtina edildikdə, bu barədə Müştərinin ödənişsiz olaraq məlumat almaq hüququ vardır. Müvafiq məlumat Müştəri müraciət etdiyi halda, növbəti iş günündən gec olmayaraq Bank tərəfindən Müştəriyə yazılı şəkildə (kağız və ya digər davamlı daşıyıcıda) təqdim edilir.

4.3.5. Müştəri, kredit limitinin azaldılması, artırılması və ya ləğv olunması ilə bağlı Banka müraciət etmək hüququna malikdir. Bu məqsədlə Müştəri, Bankın *7773 nömrəsi və ya "Leobank" mobil

əlavəsinin “Dəstək 24/7” bölməsində göstərilən müvafiq messencerlər vasitəsilə Banka müraciət edə bilər.

**4.4. Müştərinin vəzifələri:**

4.4.1. Müştəri, krediti təyinatı üzrə istifadə edəcəyinə, həmçinin kreditdən hər hansı qeyri-qanuni məqsəd, o cümlədən çirkli pulların yuyulması (qeyri-qanuni yolla əldə edilmiş gəlirin leqallaşdırılması) və terrorizmin maliyyələşdirilməsi üçün istifadə etməyəcəyinə təminat verir və buna görə məsuliyyət daşıyır.

4.4.2. Müştəri, kredit və ondan istifadəyə görə hesablanmış faizləri və digər ödənişləri bu Standart Şərtlər, standart məlumatlandırma forması və kredit xətti müqaviləsində müəyyən olunmuş müddətlərdə Banka qaytarmağı öhdəsinə götürür.

4.4.3. Müştəri, bu Standart Şərtlərin 4.3.2-ci bəndində göstərilən hüququndan istifadə etdikdə, Standart Şərtlərin 4.1.2-ci bəndində göstərilən həcmdə kompensasiya məbləğini Banka ödəməyi öhdəsinə götürür.

4.4.4. Müştəri, Banka düzgün və təhrif olunmamış məlumatlar təqdim etməlidir. O, kredit müqavilələrinin müvafiq qaydada icrasına təsir edə biləcək bütün şərait və hadisələr barədə, o cümlədən kreditin alınması üçün Banka təqdim etdiyi sənədlərdə və/və ya məlumatlarda hər hansı dəyişiklik baş verdikdə, həmin dəyişikliyin baş verməsindən sonrakı 3 (üç) iş günü ərzində müvafiq təsdiqedici sənədləri və/və ya məlumatları Banka təqdim etməlidir.

4.4.5. Müştəri, kredit və ona hesablanmış faiz borcunu, eləcə də, dəbbə pulunu, həmçinin kreditin verilməsi ilə əlaqədar komissiya haqlarını özünə məxsus olan bank hesablarından, o cümlədən digər valyutalardakı hesablarından cari kommersiya məzənnə kursu ilə konvertasiya olunaraq, komissiya haqları tutulmaq şərtilə akseptsiz qaydada silmək hüququnu Banka verir.

4.4.6. Müştəri, bu Standart Şərtlərin qüvvədə olduğu müddət ərzində istənilən vaxt Azərbaycan Kredit Bürosundan və “Asan-Finans” dövlət portalından onun haqqında olan bütün məlumatların Bank tərəfindən sorğu edilməsinə və məlumatların ötürülməsinə razılıq verir.

## 5. MÜQAVİLƏ MÜNASİBƏTLƏRİNƏ XİTAM VERİLMƏSİ

5.1. Bu Standart Şərtlər və onun çərçivəsində bağlanan müqavilələrə aşağıdakı hallarda və qaydada xitam verilə bilər:

5.1.1. Bank tərəfindən Müştərini məlumatlandırmaqla birtərəfli qaydada;

5.1.2. Məhkəmənin qanuni qüvvəyə minmiş akt(lar)ına əsasən;

5.1.3. Müştərinin müraciəti əsasında istənilən vaxt, bir şərtlə ki, Müştərinin Bank qarşısında hazırki Müqavilə üzrə təqdim olunan xidmətlər üzrə heç bir öhdəliyi olmasın;

5.1.4. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş digər hallarda.

5.2. Qanunvericiliklə başqa cür müəyyən olunmuş hallar istisna olmaqla, Müştəri ilə Bank arasında bu Standart Şərtlər və onun çərçivəsində bağlanmış müqavilələrə xitam verildiyi halda tərəflər bir-biriləri qarşısında müqavilə münasibətlərindən irəli gələn bütün öhdəliklərini icra etmiş olmalıdırlar.

5.3. Bank, Müştəriyə mobil əlavə vasitəsilə bildiriş göndərərək Müştərini məlumatlandırmaqla bu Standart Şərtlər və onun çərçivəsində bağlanmış müqavilələrə bildiriş göndərildiyi tarixdən birtərəfli qaydada xitam verə bilər. Bildiriş göndərildikdən sonra Bank tərəfindən Müştərinin bu Standart Şərtlər çərçivəsində bütün əməliyyatları məhdudlaşdırılır və Müştərinin Bank qarşısında icra edilməli olan bütün öhdəlikləri onun Bankda olan və ona çatası vəsaitlərindən akseptsiz qaydada silinərək icra edilir.

5.4. Müştəri, bu Standart Şərtlər və onun çərçivəsində bağlanan müqavilələrə xitam vermək istədikdə, Bankın *7773 nömrəsi və ya “Leobank” mobil əlavəsinin “Dəstək 24/7” bölməsində göstərilən müvafiq messencerlər vasitəsilə Banka müraciət edərək müqavilə münasibətlərinə xitam vermək barədə niyyətini bildirir. Bu halda Müştəriyə Bank qarşısında bu Standart Şərtlərdən irəli gələn müqavilə münasibətləri üzrə icra edilməli olan bütün öhdəlikləri barədə məlumat verilir və öhdəliklər tam icra edildikdən sonra ona mobil əlavə vasitəsilə bu Standart Şərtlər və onun çərçivəsində bağlanmış müqavilələrə xitam verilməsi barədə bildiriş göndəriləcəyi bildirilir. Müştəri tərəfindən bu Standart Şərtlərdən irəli gələn müqavilə münasibətləri üzrə icra edilməli

olan bütün öhdəliklər tam icra edildikdən sonra Bank tərəfindən mobil əlavə vasitəsilə Müştəriyə bu Standart Şərtlər və onun çərçivəsində bağlanmış müqavilələrə xitam verilməsi barədə bildiriş göndərilir. Bildiriş göndərildikdən sonra Bank tərəfindən Müştərinin bu Standart Şərtlər çərçivəsində bütün əməliyyatları məhdudlaşdırılır. Bildirişin Müştəri tərəfindən mobil əlavə vasitəsilə təsdiq edilməsi anından Müştəriyə münasibətdə bu Standart Şərtlərə və onun çərçivəsində bağlanmış müqavilələrə xitam verilir. Bildiriş, göndərildikdən sonrakı gündən gec olmayaraq Müştəri tərəfindən mobil əlavədə təsdiq edilmədikdə, bu Standart Şərtlər və onun çərçivəsində bağlanmış müqavilələrə Müştəri tərəfindən xitam vermək niyyətindən imtina edilmiş hesab edilir. Müştəri, bu müddətdən əvvəl mobil əlavə vasitəsilə bildirişdən imtina etməklə də bu Standart Şərtlərə və onun çərçivəsində bağlanmış müqavilələrə xitam verməkdən imtina edə bilər. Müqavilə münasibətlərinə Müştəri tərəfindən xitam verilməsindən imtina edildikdə, Müştərinin bu Standart şərtlər çərçivəsində müqavilə münasibətlərinə xitam verilməklə əlaqədar əməliyyatlarına tətbiq edilən məhdudiyyətlər aradan qaldırılır.

## 6. KREDİTİN VAXTINDAN ƏVVƏL TƏLƏB EDİLƏ BİLDİYİ HALLAR

6.1. Bank, aşağıdakı hallarda kreditin (o cümlədən kreditin vaxtından əvvəl tələb edildiyi günədək borcla bağlı Banka ödənilməli olan faiz və/və ya digər ödənişlərin) vaxtından əvvəl qaytarılmasını Müştəridən tələb edə bilər:

6.2. Müştərinin əmlak vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi (o cümlədən müqavilə bağlanılmazdan əvvəl baş vermiş və müqavilə bağlanılan anadək aradan qaldırılmamış pisləşmə Banka sonradan məlum olduqda) və ya Müştərinin Banka hər hansı yanlış məlumat verməsi səbəbindən borcun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda;

6.3. Vaxtı çatmış borcun (faizlər və/və ya haqlar daxil olmaqla) 90 (doxsan) gün və ya daha çox müddətə gecikdirilməsi, yaxud borcun (faizlər və/və ya haqlar daxil olmaqla) ödənilməsi müddətlərinin ardıcıl olaraq iki dəfə pozulması (90 (doxsan) gündən az olmamaqla);

6.4. Müştəri borc öhdəliyinin icrasının təmin edilməsi üzrə vəzifəsini yerinə yetirmədikdə, Bankın cavabdeh olmadığı hallarla əlaqədar təminat itirildikdə (məhv olduqda, xitam verildikdə və s.) və yaxud dəyəri azaldıqda (o cümlədən qarantın və ya zaminin əmlak vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdikdə) və bu hallarda borcun vaxtında qaytarılmayacağını güman etməyə əsaslar olduqda;

6.5. Müştəri, Banka borcun təyinatı üzrə istifadə edilməsinə nəzarət etməyə imkan vermədikdə və ya borc təyinatı üzrə istifadə olunmadıqda.

6.6. Standart Şərtlərin 6.3-cü bəndi kredit öhdəliyinin icrasının təminatının itirilməsi və yaxud dəyərinin azalması hallarına yalnız bu şərtlə tətbiq edilir ki, Müştəri Bank tərəfindən tələb irəli sürüldükdən sonra iki ay ərzində təminatı əvəz etməmiş və ya əlavə təminat təqdim etməmiş olsun.

6.7. Bank, bu Standart Şərtlərin 6.1-6.4-cü bəndlərində nəzərdə tutulmuş halların baş verməsini və ya mövcudluğunu müəyyən etdikdən sonra Müştəriyə kreditin və kreditdən istifadəyə görə hesablanmış faizlərin, həmçinin standart məlumatlandırma formasında nəzərdə tutulmuş digər ödənişlərin ödənilməsinə dair yazılı bildiriş göndərir və Müştəri bu bildirişi aldığı andan 10 (on) təqvim günü müddətində tələb olunan məbləği Banka ödəməlidir.

## 7. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

7.1. Bu Standart Şərtlər, habelə onun çərçivəsində imzalanan müvafiq müqavilələr üzrə üzərinə götürdüyü öhdəliyi icra etməyən və ya lazımi qaydada icra etməyən tərəf digər tərəfə vurulan zərərə görə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə müəyyən olunan qaydada məsuliyyət daşıyır və qarşı tərəfə vurduğu zərəri tam həcmdə ödəməlidir.

7.2.Bank, Müştəri ilə üçüncü şəxslər arasında olan əlaqələrə görə, həmçinin Müştəri ilə üçüncü şəxslərin bir-birinə qarşı hər hansı iddialarına görə heç bir məsuliyyət daşımır.

7.3. Müştəri təsdiq edir ki, bu Standart Şərtlərin onun tərəfindən qəbul edilməsi ilə bağlı ərizəsində Banka təqdim etdiyi əlaqə məlumatları (mobil telefon nömrəsi, e-mail adresi və s.) onun özünə məxsusdur və həmin məlumatlardan üçüncü şəxslərin qanunsuz istifadəsi nəticəsində yaranan

risklərə görə tam məsuliyyət daşıyır. Müştəri, həmin məlumatlardan üçüncü şəxslərin qanunsuz istifadəsinə istinad edərək bu müqavilə əsasında verilmiş kredit(lər) üzrə öhdəliklərin yerinə yetirilməsindən imtina edə, həmçinin onun əlaqə məlumatlarına göndərilmiş standart məlumatlandırma formasının və digər sənədlərin özü tərəfindən təsdiqini mübahisələndirə bilməz.

7.4.Bu Standart Şərtlər çərçivəsində verilmiş kreditin valyutasının mübadilə məzənnəsinin Müştəri üçün əlverişsiz dəyişməsi nəticəsində yarana biləcək maliyyə itkisi riski Müştərinin üzərinə düşür. Bu cür riskin baş verməsi Müştərinin kredit öhdəliyinin icrasından imtina etməsinə və ya bu öhdəliyin icrasını gecikdirməsinə haqq qazandırmır və heç bir halda Müştərinin kredit öhdəliklərinin yenidən hesablanmasına səbəb ola bilməz.

## 8. MÜBAHİSƏLƏRİN HƏLLİ

8.1.Bu Standart Şərtlər və onun çərçivəsində Müştəri ilə bağlanan müqavilələrlə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikası Mərkəzi Bankının normativ xarakterli aktları və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə tənzimlənir.

8.2. Bu Standart Şərtlər və onun çərçivəsində Müştəri ilə bağlanan müqavilələrdən irəli gələn bütün mübahisələr danışıqlar yolu ilə həll edilir.

8.3. İstənilən mübahisənin danışıqlar yolu ilə həll edilməsi mümkün olmadıqda, həmin mübahisə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının məhkəmələrində həll olunmalıdır.

## 9. FORS-MAJOR HALLARI

9.1. Bu Standart Şərtlər və onun çərçivəsində bağlanan müqavilələrin icrasına qarşısıalınmaz qüvvə təsir göstərərsə, Bank müqavilə münasibətləri üzrə öhdəliklərinin yerinə yetirilməməsinə görə məsuliyyət daşımır.

9.2. Qarşısıalınmaz qüvvənin təsirinə Bank tərəfindən nəzarət edilməyən, onun səhvi və ya laqeydliyi nəticəsində baş verməyən, qabaqcadan nəzərdə tutulması mümkün olmayan hadisələr, o cümlədən, müharibə, ictimai iğtişaş, yanğın, zəlzələ, vulkan, daşqın, tufan, epidemiya, pandemiya, epizotiya, karantin, dövlət və hökumət orqanlarının qərarları və bu kimi digər hallar aid edilir. Hər hansı hadisə fors-major kimi, yalnız səlahiyyətli dövlət orqanlarının rəsmi qərarına əsasən tanınır.

9.3. Fors-major halları baş verdiyi gündən etibarən müqavilə üzrə icra müddətinin axımı dayandırılır və axım bu hallar aradan qalxdıqdan sonra bərpa edilir.

## 10.YEKUN MÜDDƏALAR

10.1. Bu Standart Şərtlər üzrə gələcəkdə Müştərinin Bankda qeydiyyatda olan mobil nömrəsinə SMS vasitəsilə və ya Müştərinin Banka bildirdiyi elektron poçt ünvanına, həmçinin mobil bankçılıq vasitəsilə və ya mümkün olan digər formada Bank tərəfindən istənilən məzmunda yeniliklər, dəyişikliklər, yeni məhsullar barədə məlumatlar, öhdəliklərin icrası, o cümlədən Müştərinin Bank qarşısında icra edilməmiş öhdəlikləri barədə bildiriş, reklam xarakterli məlumatlar göndərilə bilər.

10.2. Bu Standart Şərtlər və onun çərçivəsində bağlanan Müqavilələrin hər hansı müddəasının etibarsızlığı, bu Standart Şərtlərin və onun çərçivəsində bağlanan Müqavilələrin digər müddəalarının etibarsızlığına səbəb olmur.

10.3. Bu Standart Şərtlərin və onun çərçivəsində bağlanmış Müqavilələrin qüvvədə olma müddətinin bitməsi tərəfləri həmin müddət bitənə qədər yol verilmiş pozuntulara görə məsuliyyətdən azad etmir.

10.4. Müştəri tərəfindən müraciət, təklif və şikayətlərin Bankın, habelə Azərbaycan Respublikası Mərkəzi Bankının müvafiq struktur bölməsinə (İdarəsinə) təqdim edilməsi aşağıdakı əlaqə vasitələri ilə həyata keçirilə bilər:

Bank:

- Qaynar xətt: *7773

- Messencerlər: “Leobank” mobil əlavəsinin “Dəstək 24/7” bölməsində göstərilən müvafiq messencerlər.

Azərbaycan Respublikasının Mərkəzi Bankı üzrə:

- Qaynar xətt: +99412 966
- Telefon nömrəsi: +99412 4935058

BANKIN REKVİZİTLƏRİ:
“Unibank” Kommersiya Bankı”
Açıq Səhmdar Cəmiyyəti
Ünvan: Bakı ş, Nəsimi r-nu, R.Behbudov
küç., məhəllə 384, ev 55;
Azərbaycan Respublikası Mərkəzi Bankı
Hesablaşmalar Departamentində
AZ46NABZ01350100000000015944
saylı müxbir hesabı,
kod 505754,
SWIFT UBAZAZ22
VÖEN 1300017201